Ədəbiyyat qəzeti

31 oktyabr 2020-ci il 

## KƏRAMƏT

* * *

Başıma nə gəldisə...
İnsana inamdan gəldi
Həmişə qəlbimdə məsum bir uşaq öldürüldü
ya asıldı, güllələndi, işsiz qoyuldu.
Onlardan olmadığından
qovuldu, qovuldu
oğrular, oğrular
inamımı, əlimdəki çiçəyi
götürüb qaçdılar
gör nə qədər bədbəxtəm ki,
yenə də bu oğrulara
yenə də inanıram
qəlbimdəki uşaq
qarşıma çıxacaq
inanıram.

### *Mən sizə*

O dünyadan (varsa əgər, əgər varsa)
Yol göndərəcəm
Bir az pul göndərəcəm
Bir az torpaq göndərəcəm
gözünüz doysun deyə,
bir az ümid bir az aşq
Bir az da dadını bilmədiyiniz
Zad
Bir dənə də
qəbirdən çıxmış
əl rəsmi göndərəcəm
(göz yaşı şəklində).
Mən sizə
Özümü göndərəcəm
o məktubu açmayın
partlada bilər zamanı.

* * *

Getmək, getdikcə getmək
özümü aldatmaq, azdırmaq
qayıtmaqmı? -
Yox, canım, şəxsiyyət vəsiqəmi dəyişmək
başqa bir ömürdə bambaşqa adla
maraqlıdı, deyilmi
(birdən çaşıb şeir kimi oxuyarsız, etməyin)
şeir endi sizinlə çay, pivə içməyə
bunu da mən etdim
hə, qoy onu da deyim ki,
şeir adamla söhbətdi, adamcasına.

* * *

Nəsə deyəcəkdim
yadımdan çıxıb.
Nənəm uç-uğur böcəyim
Canbəsər olmuşam e...
Gəl ki, ölüm... bircəyim

Qu nəğməsi oxu, de...
Uğursuz uğur böcəyim.
Gözləyəcəm haçanacan
Yeri barmaq ucunacan

Yer üzündən qaçanacan
Uç, uğur böcəyim
Birim, bircəm, çiçəyim
Ay mənim xallı göyçəyim.

Uç, birlikdə köcəyim
Nənəm uç - uğur böcəyim.

### *Şərqilərin bütün notlarında sevdim səni*

İsmin bütün hallarında sevdim səni
Saçından dırnağınacan
Sevdanın bütün notlarında
bütün fəsillərdə
beşinci fəsildi mən yaşadığım.
Vüsaldan ayrılığacan
Sonra da ayrılığını sevdim.

Bütün şəxs əvəzliklərində
öldürürük bir-birimizi
Aldadırıq bir-birimizi
bütün dillərdə,
Çocuqların toppuş-toppuş əlləriylə
yüyürürük biri-birimizə yıxıla-dura.
Min yerə bölmüşük yer üzünü
özümüz də bölünə-bölünə gedirik
Ölümə - Böyük Partlayışa
Bir olan Allahdan min Allah düzəltmişik
Öz Allahı var hər kəsin
La-İlahə-İllələh
(Allahdan başqa Allah yox)
Müsəlmanam, əlhəmdülillah
Amma hər şeydən öncə insanam
İnsandan başqa insan da yox.
Hamıya yetər yer üzü,
yetər göy üzü
Bütün əvəzliklərdə
öldürürük bir-birimizi
Amma mən səni
ismin bütün hallarında sevdim
Şərqilərin bütün notlarında.

* * *

0:35-də yağış yağdı, 2-3 dəqiqə...
sənə zəng eləmək istədim; yağır
sonra bu hissdən qurtardım özümü.
Sonra da çoxdanın şeirindən
yaddaşımda bu misraları
zorla oyatdım.
"Misra-misra yağış yağar üstünə
Yuyuna-yuyuna mələklənərsən
qupquru əksinə baxıb gülərsən.
İslanar yastığın, gecə köynəyin
Evinin içinə yağar bu yağış".

Diksinib qalxarsan yağış səsinə
Əlin, saçın damır gözlərin damır
Dinmə, dodağından sözlərin damır...

Anan da soruşar:
- Çağırır göylərdə ulduz-ulduzu
Harda islanmısan, bala, ay bala?
- Mən yağış səsinə oyandım, ana.

### *Azan səsi qarışıb kilsə zənglərinə*

Xaotik simfoniya
Əynində tabutu gəzir adamlar,
Bir zaman yaz üzlüm,
İndi yas üzlüm
Yas üzlüdü körpələr belə...
Sındıra bilmir polis,
sındıra bilmir dostum-düşmənim.

Bəlkə sən gözündəki çiçəyi çırpıb
Sındırarsan məni?
Asılqan adamlar paltar gəzdirir
qarışıb rənglər, fəsillər
Azan qarışıb kilsə zənglərinə.
Səslənir
Sərhəd məftillərində
Simfonik xaos.
Bilgisayar yaddaşımdan
yarpaqlar tökülür.
tökülür axşamın qəribliyinə.

### *Toy çadırı qurulsun qəbiristanda*

Şərqilərlə dəfn edin məni
upuzun olmasın, qımqısa
Niyə gülsün ki, başdaşında şəkillər?
Bütün heykəllər qəmliykən
niyə ölsün ki çocuqlar?
mənim kimi qocalar varikən.

Toy çadırı qurulsun qəbiristanda
Ölüm yox ki,
Həsrət yox ki,
həyat sevgiylə var
Ömür də şərqilərlə
unudulmaqdan-zaddan qorxmayın
təngnəfəs yüyürməyin Fəxri xiyabana
yüyürməyin divarlarda şəklinizə
Şahla oturub yeyin-için, deyin-gülün,
dərdləşin.
O dərdini danışsa,
hönkür-hönkür ağlarsan
...nə isə...
Onu deyirdim axı,
şərqilərlə dəfn edin məni.

* * *

*Türkiyədə bir dostumla görüşdüm,*
*"Nə gətirim" sordum,*
*Dedi ki, mənə "Qarabağ" gətirə bilərsənmi?*

**Mən sənə nə deyim, ay gidi dünya**
**Ömürdü yaşadıq, elə-beləcə**
**Guya ki, xoşbəxtik, bədbəxtik guya**
**Danışdıq, daşıdıq elə beləcə.**

**Özünü bir belə naz-qoza qoyma**
**Mən haqdan yanıram küləklə sönməm**
**Vaxtın reklamına bu qədər uyma**
**Elə beləcəyəm mənəm, mənəm, mən!**

**Astara limonu, Naxçıvan duzu**
**Bir az Lənkərandan çay gətirəcəyəm**
**EH... OF... Savalandan bir əlçım bulud**
**Bir az toy, bir az da vay gətirəcəyəm.**

**Onsuz da dustağıq... hərə bir cürə**
**Gəldim, canım-gözüm, ovcumda Göygöl**
**Şəmkir konyakıyla aran necədi?**
**Kürdəmir çaxırı, bir az yaxın gəl.**

**Bütün rənglərinlə doğmasan mənə**
**Bütöv Azərbaycan xəritəsiyəm**
**Laçın dağlarında qıylanan qartal**
**Şuşadan harayam - XANın səsiyəm.**

**Fatehəm, həm də ki, Şah İsmayılam,**
**Belə bir əsildən, kökdən gəlirəm.**
**Mənəm əxz eləyən bütün dinləri**
**Bütün dilləri də əzbər bilirəm.**

**Mənə yuxarıdan aşağı baxma,**
**Yıxdığım kişinin başın kəsmərəm**
**Mən o Qarabağı qaytarmayınca**
**Ulu əcdadıma "qonaq" getmərəm.**

***O məktubu açmayın.***
***partlada bilər zamanı...***